## HƏYAT VƏ FƏALİYYƏTİ



Azərbaycanın Xalq yazıçısı, dramaturq, ssenarist, publisist, tanınmış ictimai xadim Maqsud İbrahimbəyov 1935-ci il mayın 11-də Bakıda ziyalı ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1955–1960-cı illərdə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsində ali təhsil almışdır. Eyni zamanda institutun çoxtirajlı "Politexnik" qəzetində ştatdankənar müxbir kimi çalışmışdır. Tələbə inşaat dəstələrinin tərkibində istehsalat praktikasını xam torpaqlarda tikinti işlərində keçirmişdir (1958-1959).

1962–1964-cü illərdə Moskvada Ali ssenari kurslarında, 1971–1973-cü illərdə isə Ali rejissor kurslarında oxumuşdur.

Əmək fəaliyyətinə 1960-cı ildə Azərbaycan Tikinti Nazirliyinin Ağır Sənaye İnşaatı Trestində mühəndis kimi başlayan Maqsud İbrahimbəyov sonralar burada müxtəlif vəzifələrdə çalışmış, 1964-1971-ci illərdə SSRİ Mərkəzi Televiziya və Radio Verilişləri Komitəsində Azərbaycan üzrə xüsusi müxbir işləmişdir. Sonrakı illərdə o, bədii yaradıcılıqla və ictimai fəaliyyətlə məşğul olmuşdur.

Maqsud İbrahimbəyov parlaq istedada malik nasir kimi çoxşaxəli fəaliyyəti ilə Azərbaycan bədii fikrinin zənginləşməsində təqdirəlayiq rol oynamış söz ustalarındandır. Ötən əsrin 60-cı illərində yeni ədəbi prosesin formalaşmasında yaxından iştirak edən sənətkar ərsəyə gətirdiyi dəyərli nəsr nümunələrində qəhrəmanlarının xarakterini dərindən açaraq dolğun və rəngarəng obrazlar yaratmışdır. Onun, eyni zamanda dramaturq, kinossenarist və rejissor kimi Azərbaycan kinematoqrafiyasının inkişafında mühüm xidmətləri vardır. Milli koloritin qabarıq təsviri, adət-ənənələrə bağlılıq, xüsusən Bakı mühitinin özünəməxsus mənzərəsinin təsviri Maqsud İbrahimbəyov yaradıcılığını səciyyələndirən başlıca cəhətlərdir.

Onun ilk kitabı 1961-ci ildə işıq üzü görüb. Yazıçının kitabları dünyanın bir çox ölkəsində dərc edilmiş, 36 xarici dilə tərcümə olunmuşdur. Dünyanın və Azərbaycanın müxtəlif jurnallarında romanları, povestləri və hekayələri dərc olunmuşdur. O cümlədən: “Azərbaycan”, “Drujba narodov”, “Novıy mir”, “Yunost”, “Roman – qazeta”, “Literaturnı Azerbaydjan” və başqalarında.

Maqsud İbrahimbəyovun ən məşhur romanları arasında “Bütün yaxşılıqlara görə ölüm”, “Truskavetsə kim gedəcək”, “Ondan yaxşı qardaş yox idi”, “Qoy o bizimlə qalsın”, “Bayquş gəlmişdi”, “Kərgədan buynuzu” və digərlərinin adını çəkmək olar.

Maqsud İbrahimbəyovun dramaturgiyasından danışarkən qeyd etmək lazımdır ki, ”Mezozoy əhvalatı”, “Yaxşılıqların əvəzində ölüm”, “Kərgədan buynuzu”, “Müdrik sfinks gülümsəyir” pyesləri ölkəmizin və dünyanın 50 teatrında – Moskvanın dünya şöhrətli Malı Teatrı da daxil olmaqla – öz səhnə təcəssümünü tapmışdır. Onun bir çox əsərləri həm Azərbaycanda, həm də ölkəmizin hüdudlarından kənarda müxtəlif kinostudiyalarda ekranlaşdırılmışdır.

Özünün ədəbiyyat sahəsindəki, eləcə də ictimai fəaliyyətinə görə “Qırmızı əmək bayrağı” (SSRİ), “Şöhrət” (Azərbaycan), “İstiqlal” (Azərbaycan), “Şərəf” (Azərbaycan), “Dostluq” (Rusiya), “Birlik Ulduzu”, Roma Papasının, “Şərəf və Şöhrət” (Rus Pravoslav Kilsəsi) ordenlərinə layiq görülmüşdür.

Maqsud İbrahimbəyov istər ədəbiyyat, istərsə də kino və teatr sahəsində yorulmadan çalışırdı. Yazdığı sanballı əsərlərdə ölkəmizi və xalqımızı tərənnüm edir, hər bir azərbaycanlıya əziz olan "vətən" və "xalq" kimi müqəddəs kəlmələri həmişə uca tuturdu. Maqsud İbrahimbəyovun əsərləri, bənzərsiz üslubu və cəmiyyətə dərin baxışı onu Azərbaycan ədəbiyyatının öndər simalarından birinə çevirib. Onun zəngin irsi bu gün də oxuculara və tamaşaçılara mənəvi dəyərləri ötürməkdə davam edir.

Nasir, dramaturq, kinossenarist və rejissor kimi çoxcəhətli fəaliyyəti ilə o, SSRİ miqyasında tanınmışdır. Onun "Mezozoy əhvalatı" pyesi Mədəniyyət Nazirliyinin keçirdiyi ən yaxşı pyeslər müsabiqəsində birinci yeri tutmuşdur. "Mezozoy əhvalatı", "Bayquş gəlmişdi", "Yay tətili", "Bütün yaxşılıqlar üçün - ölüm!", "Truskavetsə kim gedir?", "Sən nəğməmsən mənim", "Ona görə ki, mən Ayvar Lidakam" və s. ssenariləri əsasında filmlər çəkilmişdir.

"Qəza", "Bir az da sevinc", "Eşitmədiyim mahnı", "Qoy o bizimlə qalsın" və s. adlı kitabları Moskva nəşriyyatlarında kütləvi tirajla buraxılmışdır. Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. "Bayquş gəlmişdi" və "Bütün yaxşılıqlar üçün - ölüm!" əsərlərinə görə ona 1976-cı ildə Azərbaycan SSR Dövlət mükafatı verilmişdir.

Azərbaycan Penklubunun (beynəlxalq yazıçılar təşkilatının) sədri, Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətinə (Beynəlxalq əlaqələr üzrə katib) seçilmişdir (1991). Kuba (1967) və İspaniyaya (1980) sovet nümayəndə heyətinin tərkibində rəsmi səfərdə, Monqolustan (1978) və Almaniya Demokratik Respublikasında (1980) yaradıcılıq ezamiyyətində olmuşdur. Amerikanın Luiziana ştatının fəxri senatoru və Minneapolis şəhərinin fəxri vətəndaşı seçilmişdir.

Maqsud İbrahimbəyovun adını daşıyan mərkəz bir çox müxtəlif tədbirlər, yeni kitabların nəşrini həyata keçirib və "Püstə ağacı" hekayəsi əsasında tamaşanı səhnəyə qoyub.

Maqsud İbrahimbəyovun ssenariləri əsasında 12 kinostudiyada filmlər çəkilmişdir. "Uşaqlığın son gecəsi", "Bizim Cəbiş müəllim", "Son müsahibə", "Yarımçıq qalmış serenada"(Azərbaycanfilm"), "Yaxşılıqların əvəzində ölüm", "Qoy o bizimlə qalsın" (M.Qorki adına kinostudiya), "Truskavetsə kim gedəcək", "Qızıl reys", "Kərgədan buynuzu"(Mosfilm"), "Sən mənim nəğməmsən!"(Özbəkfilm"), "Çünki mən Ayvar Lidakam" (Riqa kinostudiyası") və s. bədii filmlər on milyonlarla tamaşaçının diqqət və sevgisini qazanmışdır. Maqsud İbrahimbəyov Azərbaycan Penklubunun (beynəlxalq yazıçılar təşkilatının) sədri olmuş, Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətinə (Beynəlxalq əlaqələr üzrə katib) seçilmişdir (1991). Azərbaycan Respublikası Milli Məclisinin üzvü idi. Kuba (1967) və İspaniyaya (1980) sovet nümayəndə heyətinin tərkibində rəsmi səfərdə, Monqolustan (1978) və Almaniya Demokratik Respublikasında (1980) yaradıcılıq ezamiyyətində olmuşdur. Amerikanın Luiziana ştatının fəxri senatoru və Minneapolis şəhərinin fəxri vətəndaşı seçilmişdir.

1999-cu ildə Azərbaycan Prezidenti Heydər Əliyevin dəstəyi ilə ölkədə Əsilzadələr Məclisini bərpa edərək onun sədri olub.

2012-ci ildə Maqsud İbrahimbəyov ədəbiyyat sahəsində Nobel mükafatı nominantları arasında yer alıb. Həyat yoldaşı – Anna İbrahimbəyova (1947), oğlu – Murad İbrahimbəyov (1965), kinorejissor: Qardaşı – Rüstəm İbrahimbəyov (1939), məşhur yazıçı və ssenarist.

Bağçılıqla məşğul olmağı xoşlayırdlı, silah kolleksiyası toplayırdı, itləri sevirdi.

Azərbaycan Respublikasının xalq yazıçısı Rüstəm İbrahimbəyovun böyük qardaşıdır. Azərbaycanlı coğrafiyaşünas, coğrafiya elmləri doktoru, Respublika Coğrafiya Cəmiyyətinin üzvü Məmmədibrahim İbrahimbəyovun oğludur.

Maqsud İbrahimbəyov 22 mart 2016-cı ildə Bakı şəhərində gecə saatlarında vəfat edib. 23 mart 2016-cı ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında vida mərasimi keçirilərək I Fəxri Xiyabanda dəfn edilib.

2018-ci ildə yazıçının həyat yoldaşı Anna İbrahimbəyovanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi yaradıldı.

Mərkəz rəsmi şəkildə 2018-ci il fevralın 1-də Azərbaycanın prezidenti İlham Əliyevin fərmanından sonra fəaliyyətə başlamışdır.

Yaradıcılıq Mərkəzində Maqsud İbrahimbəyovun muzeyi, yazıçının kitabxanası və ədəbiyyat otağı yerləşir. Ədəbiyyat otağında yazıçının müxtəlif illərdə həm rus, həm Azərbaycan dillərində nəşr olunan, həm də 36 xarici dilə tərcümə edilən kitabları təqdim olunur. Burada, həmçinin yazıçının əsərlərinin dərc olunduğu bütün dərgilər toplanıb.

Maqsud İbrahimbəyovun silah kolleksiyası, rəsm toplusu, ailə yadigarları və şəxsi kitabxanası yazıçının həyat yoldaşı tərəfindən Mərkəzə hədiyyə edilib.

Maqsud İbrahimbəyov mədəniyyətimiz və mənəviyyatımızda müstəsna xidmətləri olan işıqlı və parlaq surəti, iti ağlı, kəsərli dili, xoş, mülayim siması ilə yaddaqalan dəyərli yazıçılarımızdandır.

Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, Dövlət mükafatı laureatı, tanınmış ictimai xadim Maqsud Məmmədibrahim oğlu İbrahimbəyovun anadan olmasının 90 ili tamam olur. Azərbaycan Prezidenti İlham Əliyevin Xalq yazıçısı Maqsud İbrahimbəyovun 90 illik yubileyinin keçirilməsinə dair imzaladığı Sərəncamdan irəli gələn tədbirləri həyata keçirmək məqsədilə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Maqsud İbrahimbəyov haqqında elektron məlumat bazası hazırlanıb.